# Milli Məclisin nümayəndə heyəti ölkəmizin Özbəkistandakı səfirliyində Ulu Öndərin abidəsini ziyarət edib



AZƏRTAC xəbər verir ki, sonra nümayəndələr Ulu Öndərin Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin qarşısındakı abidəsi önünə çiçək dəstələri düzüblər.

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov bildirib ki, dünya şöhrətli siyasi xadim Heydər Əliyev müasir Azərbaycanın və türk dünyasının inkişafı üçün böyük xidmətlər göstərib. Ulu Öndər Heydər Əliyev Azərbaycan üçün taleyüklü bir məqamda hakimiyyətə gəlib. Heydər Əliyev olmasaydı, müasir Azərbaycan da olmazdı. 1993-cü ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi və mədəni həyatında dirçəliş baş verib, beynəlxalq əlaqələrin qurulması, müstəqil hüquqi dövlətin yaradılması prosesi başlanıb.

Komitə sədri vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan torpaqlarını işğaldan azad edib, şəhər və kəndlərimizdə quruculuq işlərinə başlanılıb.

Nümayəndə heyətinə Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov, deputatlar Cavanşir Paşazadə, Aydın Mirzəzadə və Ağalar Vəliyev daxildir.

Azərbaycan.- 2021.- 3 noyabr.- S. 2.